# “Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm”

***Əlimi Qurani-Şərifə basaraq and içirəm: Azərbaycan xalqının əsrlər boyu yaratdığı milli mənəvi dəyərlərə və ənənələrə sadiq qalacağam, onları daim uca tutacağam... Bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Möhtərəm dövlət başçımız İlham Əliyevin 2018-ci il aprelin 11-də növbəti dəfə Prezident seçilməsindən dörd il ötür. Seçkilərdən sonra düzənlənən andiçmə mərasimindəki çıxışında ölkə rəhbərimizin bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyimizi necə böyük inamla bəyan etdiyini qürurla xatırlayırıq. Zaman bir daha göstərdi ki, biz növbəti dəfə ən doğru seçimi etmişik.

İlham Əliyevin siyasi karyerasında və xalq naminə fəaliyyətində atdığı bütün addımları hər zaman təbii alınıb, uğurlu və, düşərli olub. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsilini başa vurduqdan sonra orada aspiranturanı bitirərək, elmi dərəcə alması və beş il müəllim işləməsi, sonra ARDNŞ-də 1-ci vitse-prezidentliyi, Milli Məclisdə deputatlıq fəaliyyəti və AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri ikən assambleyanın sədr müavini və büro üzvü seçilməsi, 1997-ci ildən bəri Milli Olimpiya Komitəsinin prezidenti, Baş nazir olması, iqtidar partiyası olan YAP-a nümunəvi sədrliyi, Qoşulmama Hərəkatında rəhbərliyinin müstəsna hal kimi daha bir il uzadılması kimi meyarlar bunu təsdiqləyir.

...Azərbaycan rəhbəri daim xalqına güvənən, ondan güc və ilham alan Prezidentdir. Tez-tez ictimaiyyət arasına çıxması, bölgələrə səfərlər etməsi, özünün doğum günlərini, el bayramlarını məcburi köçkün soydaşlarımızın yanında, işğaldan azad etdiyi rayonlarda, qəhrəman hərbçilərimizlə birgə keçirməsi, sadə camaatla üzbəüz görüşlərə gedərək, səmimi söhbətlər etməsi onun ali şəxsiyyətinin sadəliyini, böyüklüyünü göstərir. Elə sözügedən seçkilərdən bir neçə ay sonra Sumqayıtın Dənizkənarı bulvarında şəhər sakinləri ilə necə səmimi görüşdüyünə bu sətirlərin müəllifi şəxsən şahidlik edib. Dövlət başçısına xitabən söylənən “Siz bizim prezidentlər içərisində seçilən Prezidentimizsiniz. Biz Sizinlə fəxr edirik”, – kimi ürək sözləri məhz rəhbərə bəslənən saf duyğuların ifadəsi idi.

...Dövlətimizin başçısı dostluqda möhkəm sədaqətli olan müdrik şəxsiyyətdir. Səkiz il öncə Praqada aprel günlərinə təsadüf edən "Şərq tərəfdaşlığı" proqramı sammitində qondarma 1915-ci il soyqırımından danışaraq Türkiyəni yamanlayan ermənilərə dediyi bu sözlərin şimşək kimi onların başında necə çaxdığını yaxşı xatırlayırıq: “Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur: ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm". İlham Əliyevin ona təbii rəğbət və sanballı dividendlər qazandıran bu kimi cəsarətli addımları, diplomatik gedişləri çox olub.

***(ardı 5-ci səhifədə)***

# “Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm”

*(əvvəli 1-ci səhifədə)*

... Azərbaycan Prezidentinin həsəd aparılacaq dərəcədə kreativ düşüncə tərzi, hər zaman vaxtında atdığı uğurlu diplomatik addımları gözəl nəticələrə gətirib çıxarır və real siyasətdə əməli fayda verir. Diskussiyalarda söylədikləri isə problemlərin həllinə özəl yanaşma tərzi kimi yadda qalır, onun mövqeyini daha yaxşı anlamağa kömək edir. İlham Əliyev İkinci Qarabağ müharibəsi zamanı dünya mətbuatının 30-dan artıq “cəngavər”inə müsahibələri zamanı qərəzli suallara verdiyi punktual və arqumentli cavabları ilə “informasiya müharibəsi”nin də qalibi olduğunu açıq-aşkar nümayiş etdirən Prezidentdir.

Xatırladaq ki, 2018-ci il seçkiləri dünya iqtisadiyyatının müəyyən tənəzzülə məruz qaldığı, neftin qiymətinin kəskin düşdüyü, dolların nominal dəyərinin iki dəfə artdığı bir vaxta təsadüf edirdi. Amma Azərbaycan seçicisi bütün bunları heç də hakimiyyətin imkanlarının devalvasiyası saymadı və həvəslə seçkilərə gedərək yenidən ən çox inandığı namizədə səs verməklə kimlərinsə yersiz ambisiyalarına uymadı. Bu, ilk növbədə, ölkəmizdə vətəndaş sektorunun artıq kifayət qədər yetkin olmasının sübutudur.

Seçkilərdən sonrakı dövrdə qorunub saxlanan və daha da möhkəmlənən ictimai-siyasi sabitlik də, dünyanı cənginə alan koronavirus pandemiyasına qarşı Azərbaycanda aparılan səmərəli mübarizə də, 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə də göstərdi ki, biz doğru yoldayıq, haqq yolundayıq və heç bir yabançı təsir xalq-prezident birliyimizi zərrəcə də sarsıda bilməz. Başqa sözlə desək, xalqın milli təhlükəsizlik istəkləri ilə cəmiyyətin demokratik istəklərinin üst-üstə düşdüyü təsdiqləndi.

Dayanıqlı inkişafa yönəlmiş siyasət yürüdən Prezident İlham Əliyev ötən müddətdə dövlətçiliyə xidmətləri ilə daim böyük etimada tam layiq olduğunu sübuta yetirib, dünya arenasında söz sahibi olan liderlərdən biri kimi tanınıb. Prezident postuna keçirilən seçkilərdə ardıcıl olaraq 4-cü dəfə “marafon”u qələbə ilə başa vurması onun məhz ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olduğunu göstərdi.

Bəs, xalqın seçiminin məhz İlham Əliyevin böyük fərqlə xeyrinə olmasını şərtləndirən başlıca amillər hansılardır? Əlbəttə, ilk növbədə, əvvəlki üç seçkidən sonra möhtərəm Prezidentimizin rəhbərliyi ilə ölkəmizin böyük inkişaf yolu keçməsi vurğulanmalıdır. Ulu öndərin qurduğu möhkəm təməl




üzərində güclənən milli dövlətçiliyimiz ciddi şəkildə tərəqqi edib, ölkə iqtisadiyyatı şaxələnərək daha da genişlənib. Azərbaycanın beynəlxalq müstəvidə mövqeyi xeyli dərəcədə yüksəlib. İnsan amili, xalqın rifahı və milli maraqlar dövlət siyasətinin strateji prioritetləri olub.

İlham Əliyevin ilk dəfə Prezident seçildiyi 2003-cü ildən növbədənkənar seçkilərin keçirildiyi 2018-ci ilədək ölkəmizdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə artmışdır. Strateji valyuta ehtiyatlarının artımı 26,6 dəfəyə yüksəlmişdir. Əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əməkhaqqları 12,9 dəfə çoxalmışdır. On beş il ərzində Azərbaycanda maaşlar 7 dəfə, pensiyalar 10 dəfədən çox artmışdır. 2003-2018-ci illərdə Azərbaycan qlobal rəqabət indeksində dünyadakı mövqeyini xeyli yüksəltmişdir. Müsbət tendensiya, artım şkalası indi də eyni vüsətlə davam edir.

Növbədənkənar Prezident seçkilərindən iki il əvvəl cəbhədə məlum Aprel döyüşləri olmuş, Azərbaycan əsgəri məğlubiyyətlə barışmadığını nümayiş etdirmişdi. Bu da seçkilərdə cənab İlham Əliyevin qələbəsini təmin edən şərtlərdən biri idi. Seçkilərdən bir ay sonra, 2018-ci ilin mayında bir həftəlik Günnit əməliyyatı isə bütün dünyaya ordumuzun gücünü, qələbə əzmini göstərmişdir. Seçkilərdən iki ay yarım sonra Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən hərbi parad¬da çıxışı zamanı Ali Baş Komandan bildirmişdi ki, hakimiyyətə gəldiyi ilk gündən tor¬paqlarımızın erməni işğalçılardan təmizlənməsi onun qarşısında dayanan ən mühüm və məsuliyyətli vəzifədir: “Gün gələcək və işğal altın¬dakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.

Bəli, seçkilərdə qələbəni, xalqın öz rəhbərinə sevgisini təmin edən ən başlıca amillər sırasında torpaqlarının 20 faizi düşmən işğalı altında qalmış ölkəmizin bütövləşməsinə xidmət edən bu strateji fəaliyyət xüsusi qeyd edilməlidir. Yeni əsrin əvvəllərindən bəri ötən dövr həm də Azərbaycan Silahlı Qüvvələrinin sürətli inkişaf dövrü kimi səciyyələnir. Orduda təchizat, silah-sursat, texnika, döyüş qabiliyyəti baxımından nümunəvi şərait yaradılmışdır.Dördgünlük savaş və Günnit əməliyyatları isə bütün dünyaya ordumuzun gücünü, qələbə əzmini nümayiş etdirmişdir. Elə bu əsasda da 2020-ci ildə başlanan Vətən müharibəsi Azərbaycanın düşmən üzərində möhtəşəm tarixi Qələbəsi ilə nəticələnmiş, güclü havadarlarına güvənən ermənilərin hərbi təcavüzünə məruz qalmış doğma torpaqlarımız 30 illik işğaldan azad edilmişdir.

Beləliklə, xalq özünün taleyüklü seçimində qətiyyən yanılmadığına böyük qələbə ilə sonuclanan 44 günlük Vətən müharibəsində bir daha tam əmin oldu. Sarsılmaz rəhbər-xalq-ordu birliyi sayəsində son 200 illik tariximizin ən parlaq səhifəsi yazıldı. Bu, şəref, qeyrət, qətiyyət səhifəsidir. Müzəffər Ali Baş Komandanımızın böyük sərkərdəlik məharəti, diplomatik qətiyyəti, Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı, xalqımızın dönməz iradəsi və qələbə əzmi erməni faşizminin “Dəmir yumruq” əməliyyatı ilə məhv edilməsinə və Zəfər yürüşünün böyük uğurla sona çatmasına səbəb olmuşdur. Özü də məhz cənab İlham Əliyevin hakimiyyəti dövründə yüksək vətənpərvərlik ruhunda tərbiyə alıb böyüyən gənclərimiz qanları və canları bahasına Qarabağı və Şərqi Zəngəzuru düşmən tapdağından təmizləmişlər.

İnişil noyabrın 8-də Şuşanın alınması, noyabrın 10-da Ermənistan üçün biabırçı kapitulyasiya aktı olan üçtərəfli bəyanatın imzalanması (özü də Nikol Paşinyanın sənədə miskincəsinə üzə çıxmadan hansısa bir künc-bucaqda qol çəkməsi), dekabrın 10-da Bakıda möhtəşəm Zəfər paradının təşkili, müharibə zamanı ələ keçirilmiş çoxsaylı hərbi qənimətlərin meydana gətirilməsi... cənab İlham Əliyevin xalqımıza yaşatdığı tükənməz xoşbəxtliyin parlaq nümayişi olmuşdur.

Beləcə, 28 illik fasilədən sonra ilk dəfə Prezidentimizin səsləndirdiyi və dilimizin əzbərinə çevrilmiş “Qarabağ Azərbaycandır!” deyimi özünə əbədi həyat qazanaraq, ömrümüzü-günümüzü şövqləndirməkdə, bizi dünyada qəhrəman xalq kimi tanıtmaqdadır. Artıq Qarabağın üzü gülür. Orada “Böyük Qayıdış” naminə hərtərəfli, sürətli bərpa və quruculuq tədbirləri həyata keçirilir.

Ötən il martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayında çıxış edən natiqlər haqlı olaraq vurğulayıblar ki, bu vaxta qədər heç bir siyasi lider öz imkanlarından milli məqsədlər üçün bu qədər məharətlə və səmərəli istifadə edə bilməmişdir. Məhz İlham Əliyev sülhə, əmin-amanlığa, insanlığa istiqamətlənən görüşləri və çıxışları ilə dünyanın siyasi liderlərinə dövlətə rəhbərlik etməyin, xalqın və Vətənin mənafeyini qorumağın aydın, düşünülmüş modelini təqdim edir, ədaləti, həqiqəti dananlara haqqın üzünü göstərir və dərs verir.

Həm sözügedən seçkilərə qədər, həm də sonrakı dövrdə Azərbaycan müasir dünyanın çağırışlarına daha dayanıqlı iqtisadiyyat formalaşdırmaqla cavab verərək nümunə göstərib. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaş kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib. Bütün bunlar sükanı etibarlı əllərdə olan Azərbaycan gəmisini daha işıqlı sabahlara aparır.

**Əli NƏCƏFXANLI,**
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 10 aprel.- S.1;5.